Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu

İctimai Vəsaitin Monitorinqi Mərkəzi

Bakı Siyasi Tədqiqatlar Mərkəzi

Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin (Vaşinqton, ABŞ)

dəstəyi ilə

AZƏRBAYCANDA SAHİBKARLIQ MÜHİTİNİN YAXŞILAŞDIRILMASI ÜZRƏ

# MİLLİ GÜNDƏLİK

(2009-CU İL ÜÇÜN)

(1-ci redaksiya)

İÇİNDƏKİLƏR

Ön söz ........................................................ 3
1. İnstitusional islahat ........................................................ 4
2. Kiçik sahibkarlığa dair Avropa məfhumlarının tətbiqi ........................................................ 5
3. Requlyator islahat ........................................................ 6
4. Vergi rejiminin yumşaldılması ........................................................ 7
5. Lisenyalaşdırma sisteminin islahatı ........................................................ 10
6. Mülkiyyət hüququnun qeydiyyatı sisteminin təkmilləşdirilməsi ........................................................ 12
7. Səmərəli məlumatlandırma sisteminin yaradılması ........................................................ 13
8. Tikintiyə icazənin alınması sisteminin islahatı ........................................................ 14
9. Kiçik sahibkarlıq infrastrukturunun inkişafı ........................................................ 15
10. Qaiməsiz satışa görə cəzaların gücləndirilməsi ........................................................ 16
11. Yoxlamaların tənzimlənməsi ........................................................ 17
12. Qanunun aliliyinin və ədalətli mühakimənin təmin edilməsi ........................................................ 18
13. Xarici ticarət əməliyyatlarının təkmilləşdirilməsi ........................................................ 19
14. Sosial korporativ məsuliyyət: məcburiyyətdən könüllülüyə ........................................................ 19

ÖN SÖZ

Ölkədə biznes mühitinin yaxşılaşdırılması bir çox dünya hökumətlərinin gündəlik qayğısıdır. ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, Fransa, Türkiyə və başqa ölkə hökumətlərinin yerli və xarici kapital üçün investisiyaların cazibəsini daim artırmaq məqsədi güdən təcrübəsindən bir çox misallar gətirmək olar. Bu və ya digər ölkənin inkişaf səviyyəsindən asılı olmayaraq belə siyasətə daim ehtiyac var. Azərbaycan da daxil olmaqla keçid ölkələrində biznes mühitinin yaxşılaşdırılması üzrə sistemli cəhdlərin göstərilməsi xüsusilə vacibdir.

1991-ci ildə ölkədə müstəqillik bərpa olunduqdan sonra özəl sahibkarlıq böyük sürətlə inkişaf etməyə başladı. Buna sovet təsərrüfat sistemindən bazar sisteminə keçid siyasəti və hökumətin yeni qanunların qəbul olunması, bazar institutlarının yaradılması, makroiqtisadi sabitləşmə, xarici investisiyaların iqtisadiyyatın enerji və başqa sektorlarına geniş miqyasda cəlb edilməsi, kiçik və orta müəssisələrin özəlləşdirilməsi, torpaqların özəl mülkiyyətə verilməsi və s. üzrə həyata keçirdiyi proqramlar və tədbirlər səbəb olmuşdur.

Bu gün ölkədə 60 mindən artıq özəl şirkətlər - kiçik, orta və böyük müəssisələr fəaliyyət göstərir. Onlardan təxminən 20%-i kiçik müəssisələrdir. Bundan başqa, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti olduqca inkişaf etmişdir. Bu gün ölkədə belə biznesmenlərin sayı 260 mindən artıqdır.

ÜDM-də özəl sektorun payı bu gün 84%-di(ı)r (transmilli neft şirkətlərinin fəaliyyəti daxil olmaqla).

Ölkədə artıq çox məşhur brendləri olan ondan çox iri özəl şirkət fəaliyyət göstərir.

Bütün bunlar ölkədə özəl sahibkarlığın inkişafı ilə bağlı qazanılmış uğurların əlamətidir. Bununla yanaşı, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Beynəlxalq İqtisadi Forum, Frezer İqtisadiyyat İnstitutu, Heriteyc və beynəlxalq səviyyədə tanınmış başqa dünya institutları və konsaltinq təşkilatları, eləcə də Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu kimi milli təşkilatların apardığı tədqiqatlat göstərir ki, Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması üçün bir çox imkanlar var.

Bu ildən başlayaraq hökumət hüquqi şəxslərin qeydiyyatı üçün “vahid pəncərə” prinsipini tətbiq etməklə bu imkanlardan birini həyata keçirib. Bu qərarın səmərəliliyi göz qabağındadır. Artıq “vahid pəncərə” prinsipinin qüvvədə olduğu birinci yarımildə qeydiyyatdan keçmiş müəssisələrin sayı 30% artmışdır.

Son illərdə elektron vergiödəmə sistemi də sürətlə inkişaf edir. 1000 kiçik sahibkarlıq subyekti arasında may-iyul aylarında SBİİYF tərəfindən keçirilmiş sosioloji sorğunun nəticələrinə görə artıq sahibkarların 34.4%-i elektron vergiödəmə sistemindən istifadə edir. Daha 22.7% yaxın gələcəkdə elektron vergiödəmə sisteminə keçmək niyyətindədir.

Son ildə həm də əmək qanunvericiliyinə bir sıra vacib düzəlişlər qəbul olunub, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının qeydiyyatı sistemi inkişaf etməkdədir, kredit verənlərin qeydiyyatdan keçməsi ilə bağlı vəziyyət yaxşılaşır.

Bütün bu tədbirlər Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının «Doing Business in 2009» adlı hesabatında Azərbaycanın ölkədə keçirilmiş islahatların sayına görə dünya miqyasında birinci yerə çıxmasına imkan verdi.

Siyasətçilər, ictimai birliklər və medianın diqqətinə təqdim edilmiş "Azərbaycanda Sahibkarlıq Mühitinin Yaxşılaşdırılması üzrə Milli Gündəlik" (daha sonra qısa olaraq MG) adlı bu sənəd illik perspektivdə ölkədə sahibkarlıq fəaliyyəti şəraitinin daha da yaxşılaşdırılmasının əsas istiqamətlərinin olduqca qısa ifadə olunmasına həsr edilib. Sənəd Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF) tərəfindən hazırlanıb. Təkliflər Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzi (Center for International Private Enterprise – CIPE, Washington, USA) tərəfindən maliyyələşdirilən "Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması" layihəsi çərçivəsində hazırlanmışdır.

Bu sənəddə ifadə olunmuş təkliflər hazırlanarkən SBİİYF 1000 kiçik biznes nümayəndəsi arasında keçirilmiş sorğu, 75 biznesmenlə dərin müsahibələr daxil olmaqla tədqiqatlar aparmış, eləcə də Azərbaycanda biznes fəaliyyətini tənzimləyən bir sıra qanunlar və normativ aktlar təhlil olunmuşdur. Bundan əlavə beynəlxalq institutlarının tövsiyələri, eləcə də keçid iqtisadiyyatlı bir sıra ölkələrin təcrübəsi təhlil olunmuşdur.

Bu sənəd ilk növbədə prezidentliyə namizədlərin seçkiqabağı öhdəlik və platformalarının formalaşmasında onlara yardım üçün nəzərdə tutulmuşdur. Ona görə də o olduqca qısadır və ölkədə biznes mühitinin, həm də əsasən kiçik sahibkarlıq sahəsində təkmilləşdirilməsinin əsas istiqamətlərini göstərir. Bu islahatlar, sənəd müəlliflərinin fikrincə, müvafiq siyasi iradənin olduğu halda bir il ərzində tam həyata keçirilə bilər. Onlardan bəziləri isə çox qısa müddətdə - 1-2 ay ərzində həyata keçirilə bilər.

## 1. İNSTİTUSİONAL İSLAHATLAR

Kiçik biznesə yardım üzrə xüsusi dövlət agentliyinin yaradılması məqsədəuyğun görünür. Belə dövlət institutları (adları cox vaxt oxşar olmur) bir çox ölkələrdə (məsələn, ABŞ, Kanada, Rusiya, Çin və Çexiyada) mövcuddur. Onların əsas vəzifəsi özəl sahibkarlığın ən zəif sektoru olan kiçik biznes üzərində dövlət himayəsinin təmin edilməsidir. Bu institutlar öz ölkələrində kiçik biznesin inkişafı üçün əlverişli şəraitin yaradılmasına istiqamətlənib. Onlar qanunvericiliyin təkmilləşdirilməsi proseslərində təşəbbüslərlə çıxış edir, fəaliyyət göstərən və yaradılan bizneslərə məsləhətlər verir, kreditlərin alınmasına yardım edir, kiçik biznesi dövlət orqanlarının əsassız yoxlamaları və müdaxilələrindən müdafiə edir, kiçik biznesin inkişafı gedişatını və bu sahədə ortaya çıxan problemləri təhlil edir və s.

Kiçik biznes üzərində dövlət himayəsinin təmin edilməsinin digər istiqaməti kiçik biznes üzrə Dövlət və ya Milli Ombudsman İnstitutunun təsis edilməsidir. Belə institutlar (müxtəlif adda) məsələn, ABŞ, Polşa və b. ölkələrdə mövcuddur. Kiçik biznes üzrə Dövlət və ya Milli Ombudsman vəzifəsi ABŞ-da Kiçik Biznes Administrasiyası ilə yanaşı mövcuddur. Milli Ombudsmanın vəzifələri kiçik biznesin maraqlarını həddən artıq ağır federal

tənzimləmədən, nəzarətdən və mümkün cərimələrdən müdafiə etməkdir. Hər il Milli Ombudsman ABŞ Konqresinə xüsusi məruzə təqdim edir.

Ombudsman İnstitutu Avropa İttifaqında da fəaliyyət göstərir, sahibkarlar və onların assosiasiyaları Avropa qurumlarının pis idarəçiliyindən ziyan çəkdikdə şikayətlə bura müraciət edə bilərlər.

MG müəllifləri təklif edirlər:

1) Kiçik Biznes üzrə Milli Agentlik və
2) Kiçik Biznes üzrə Milli Ombudsman vəzifəsi təsis edilsin.

## 2. KİÇİK SAHİBKARLIĞA DAİR AVROPA MƏFHUMLARININ TƏTBİQİ

Biznesin kiçik kateqoriyasına aid edilməsi Azərbaycan Respublikasında Nazirlər Kabinetinin 20 aprel 2004-cü il tarixli 57 saylı qərarı ilə tənzimlənir. Bu qərara görə sahibkarlıq fəaliyyətinin bu və ya digər subyektinin "kiçik" kateqoriyasına aid edilməsi iki meyardan (işçilərin sayı və illik dövriyyə) istifadə etməklə gerçəkləşdirilir. Qərarda aşağıda göstərilən sahələrdə kiçik sahibkarlıq subyektləri üçün bu meyarların ən son qiymət ifadələri verilir: 1) sənaye və tikinti; 2) elmi-texniki və konsaltinq xidməti; 3) kənd təsərrüfatı; 4) topdansatış ticarət; 5) pərakəndəsatış ticarət, nəqliyyat, xidmət və digər iqtisadi fəaliyyət növləri. Qərarda müəyyənləşdirilmiş son həddi göstərən rəqəmlər SBİİYF-nun keçirtdiyi təhlilə görə bugünkü reallıqlara və Avropada qəbul olunmuş orta göstəricilərə uyğun gəlmir.

Nəticə olaraq Azərbaycanda kiçik sahibkarlığın inkişaf səviyyəsi və rolunu Avropa ölkələri ilə müqayisə etmək mümkün olmur. Bundan əlavə, milli məhsulun yaradılmasında, iş yerləri ilə təmin edilmədə və başqa göstəricilər üzrə kiçik biznesin rolu azaldılır.

Avropa Komissiyası 2003-cü ildə Qərbi Avropa ölkələri iqtisadiyyatının KOS sektorunu təşkil edən mikro-, kiçik və orta müəssisələrin müəyyənləşdirilməsi üçün aşağıdakı cədvəli qəbul etmişdir.

| | Işləyənlərin sayı | İllik dövriyyə (mln. Avro) | və ya Aktivlərin balans dəyəri ( mln.Avro) |
|---|---|---|---|
| orta | < 250 | ≤ € 50 milyon | ≤ € 43 milyon |
| kiçik | < 50 | ≤ € 10 milyon | ≤ € 10 milyon |
| mikro | < 10 | ≤ € 2 milyon | ≤ € 2 milyon |

Aİ-nın yuxarıdakı təsnifatına uyğun olaraq müəssisənin mikro-, kiçik və ya orta hesab edilməsi üçün o, say meyarına və iki maliyyə meyarından birinə uyğun olmalıdır. Bunula yanaşı, müəssisə iqtisadi cəhətdən müstəqil olmalıdır, bu isə o deməkdir ki, KOS sektoruna aid olmayan müəssisə və ya müəssisə qrupuna KOS sektorundan olan müəssisə əmlakının ən çoxu 25%-i aid ola bilər. Təyində göstərilmiş illik dövriyyə və aktivlərin balans dəyərinin yuxarı hədlərinə Aİ iştirakçısı olan ölkələrin iqtisadiyyatında baş verən dəyişiklikləri (qiymətlərin dəyişməsi, məhsuldarlığın artması) nəzərə almaq üçün müntəzəm olaraq adətən 4 ildə 1 dəfə yenidən baxılır.

Avropa təriflərinə keçid kiçik biznesin inkişafına yardım edilməsi üzrə Avropa ölkələrinin təcrübəsindən daha yaxşı istifadə etməyə imkan verəcək (vahid anlayışdan istifadə əsasında). Bundan başqa, ümumi anlayışların tətbiqi tək kiçik biznesin inkişafı yox, həm də onun ölkə iqtisadiyyatında rolu məsələlərində korrekt müqayisələr və təhlillər üçün imkan yaradacaq. Aİ tərəfindən KOS-u dəstəkləyən müxtəlif proqramların həyata keçirilməsini də nəzərə alaraq Azərbaycan yavaş-yavaş bu proqramlara cəlb oluna bilər, bu da, çox güman ki, ölkənin Avropa Qonşuluq Siyasətində iştirakı çərçivəsində mümkündür.

<u>MG müəllifləri təklif edirlər:</u> 2009-cu ildən kiçik biznesin Nazirlər Kabinetinin 20.04.2004 tarixli qərarında verilmiş təriflərin əvəzinə Avropa İttifaqının tərifləri və təsnifatı tətbiq edilsin.

## 3. REQULYATOR İSLAHATLAR

Biznesin normativ-hüquqi tənzimləmə sistemi bir çoz ölkələrdə genişlənmə və mürəkkəbləşməyə meyl edir. Eyni zamanda bu da çox vaxt bir-birini təkrarlayan və hətta bir-birinə zidd olan normaların meydana çıxması ilə müşayiət olunur. Bu və ya digər normativ sənəd çox vaxt hansı sa konkret problemin həlli ilə əlaqədar qəbul olunur. Bu zaman mövcud olan normativ aktlarla uyğunluq lazımi dərəcədə təhlil olunmur. Ona görə də ölkələr normativ-hüquqi islahatlar keçirir. Belə islahatların iki prinsipi məlumdur: 1) «aşağıdan yuxarı» prinsipi; 2) «gilyotin» prinsipi. Birinci halda “problemli hüquqi normalar” aşkarlanır və aradan qaldırılır. Qalan hissə toxunulmamış qalır. Belə islahatlar ləng aparılır və kompleks xarakter daşımır, belə ki, “aşağı”dan – bu və ya digər problemlərlə üzləşən biznesmen və ya məmurlardan gələn siqnallara əsaslanır. «Gilyotin» prinsipindən istifadə edərkən «gilyotin ilə cəzalandırılma»nın müəyyən tarixinə nəzərdən keçirilməli olan tənzimləmə sahəsi seçilir. Mövcud normativ aktların ənənəvi legitimlik prezumpsiyası ləğv olunur, tədqiq olunan sahədə bütün normativ baza müəyyən olunmuş tarixdə qanuni qüvvəsini itirərək “kəsilib götürülür” və yalnız islahatlar keçirilən müddətdə zəruriliyi, qanuniliyi və bazar iqtisadiyyatı prinsiplərinə uyğunluğu sübut olunmuşlar saxlanılır.

Ayrı-ayrı tədqiqatlar göstərir ki, Azərbaycanda normativ-hüquqi islahatların keçirilməsi zərurəti var. Lakin əvvəlcə hər sahədə mövcud normativ sənədlərin inventarlaşmasını aparmaq lazımdır. İnventarlaşma konkret sahə məmurları və biznes-assosiasiyaları nümayəndələrindən yaradılmış xüsusi komissiyalar tərəfindən aparılmalıdır. Hər normativ sənəd müəyyən müddət üçün yaradılmış komissiya tərəfindən təsdiqlənməlidir, əks halda o, avtomatik olaraq ləğv olunur.

Təhlilin gedişatında hər normativ müddəa aşağıdakılar daxil olmaqla bir neçə sualdan ibarət üç kvalifikasiya testindən (beynəlxalq ekspertlərin tövsiyəsi) keçməlidir:

- *Qanunilik* – dövlət qurumunun nəzərdən keçirilən hüquqi normanı mövcud qanunvericiliyə uyğun olaraq qəbul etmək hüququ varmı? Bu norma daha yüksək səviyyəli qanunverici və normativ aktlara uyğun gəlirmi?
- *Zərurilik* – təhlil edilən hüquqi norma bütövlükdə cəmiyyətin və ya konkret dövlət orqanının və ya imtiyazlı özəl şəxslər qrupunun maraqları çərçivəsində qəbul olunub? Hüquqi normanın qəbuluna səbəb olan problem doğrudanmı hələ də aktualdır? Cavabın hə olduğu halda problem hüquqi normanın indiki məzmununda nə dərəcədə səmərəli həll olunur? Bu normanın qəbul olunması məsrəfləri onun sayəsində əldə olunan üstünlüklərlə kompensasiya edilirmi?
- *Bazar iqtisadiyyatı prinsiplərinə uyğunluq* – təhlil edilən hüquqi norma kifayət qədər aydın olub başqa şərhlərə imkan vermir ki? Bu, sahibkarlıq fəaliyyəti ilə bağlı məsrəfləri artırmırmı?

Göstərilən meyarlara uyğun gəlməyən hüquqi normalar ya ləğv olunur, ya da belə uyğunluğun təmin edilməsi məqsədilə onlara düzəlişlər edilir. Göstərilən meyarlara uyğun olan hüquqi normalar yerli və xarici sahibkarlar və başqa vətəndaşlar üçün açıq olan tənzimləyici sənədlər reyestrinə daxil edilir. Reyestr bütün nazirliklərin veb-səhifələrində yerləşdirilir. Requlyator islahatların son müddəti tamam olanda reyestrə daxil edilməmiş sənədlər avtomatik olaraq qüvvədən düşür.

MG müəllifləri təklif edirlər: 2009-cu ildə ölkədə «gilyotin» prinsipinə əsaslanan yuxarıdakı sxemə uyğun olaraq requlyator islahatlar keçirilsin.

## 4. VERGİ REJİMİNİN YUMŞALDILMASI

Tədqiqatlar göstərdilər ki, bir çox kiçik müəssisələr və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş sistem üzrə vergi ödəmək imkanı verən hədd çərçivəsində qalmaq istəyərək real dövriyyə həcmini gizlədirlər. Elə bu səbəbdən (və başqa səbəblərə görə: kiçik müəssisələr üçün yüksək qiymət, bank xidmətləri üçün ödənişin yüksək olması, ölkədə plastik kartlar vasitəsilə mal və xidmətlərin ödənilməsi ənənəsinin inkişaf etməməsi) ödəniş terminalları vasitəsilə nağdsız ödəmənin geniş surətdə tətbiqi ləngiyir. Müxtəlif qiymətləndirmələrə görə, vergi tam yığılmır və bu vəsaitin bir hissəsi sadələşdirilmiş sistem üzrə vergi ödəməyə imkan verən hədd çərçivəsində qalmaq istəyən sahibkarlarla məmurlara çatır. Ona görə də sadələşdirilmiş vergiödəmə sistemi üçün dövriyyə həddini iki dəfə artırmaq məqsədəuyğun görünür.

Vergi Məcəlləsi olduqca həcmli və mürəkkəb sənəddir. Onun sahibkarlıq fəaliyyətinin növləri və gəlir sahələri üzrə deyil (bu təbiidir), vergi növləri üzrə quruluşu (belə olmalıdır) kiçik sahibkarların bu sənədlə işləməsini çətinləşdirir. Biznesin bu və ya digər konkret sahəsində (pərakəndə və topdansatış ticarət, restoranlar, dəlləkxanalar, camaşırxanalar, kimyəvi təmizləmə, müxtəlif atelyelər və s.) işləyən sahibkarlara istiqamətlənmiş xüsusi vəsaitlərin işlənib hazırlanması və kütləvi tirajla nəşri vacibdir.

Kiçik və orta sahibkarlığı inkişaf etdirmək məqsədilə onların fəaliyyətinin ilk ilində vergi tətilindən istifadə etmək çox əhəmiyyətli olardı. Belə imtiyazın bir illik fəaliyyətdən sonra müəssisə sahibkarının özü tərəfindən bağlanmasına səbəb olmaması üçün müəssisənin bağlanmasının sənədləşdirilməsi ilə bağlı uyğun normativ sənədlərə ödənilməmiş verginin illik həcminin ödənilməsi tələblərini daxil etmək olar. Yalnız verilən kiçik sahibkarlıq subyektinin əlavə iki il ərzində fəaliyyətini davam etdirdiyi halda birinci il üçün borc silinə bilər.

Məlumdur ki, Azərbaycanda Rusiya istehsalı olan qida məhsulları az satılmır. Rusiyada bu mallara vergi qoyulması Azərbaycanla müqayisədə daha yumşaqdır. Orada qida məhsullarının bir çox növlərinə ƏDV 10%-dir. Belə vəziyyət Azərbaycan sahibkarlarının istehsal etdiyi qida məhsullarının rəqabətədavamlılığını azaldır. Ona görə də Azərbaycan istehsalı olan oxşar mallara da ƏDV stavkasının azaldılması haqqında düşünmək yaxşı olardı. Bu, sözsüz ki, Azərbaycan əhalisinin aztəminatlı hissəsinin maddi vəziyyətinə də yaxşı təsir edərdi.

Sosial vergilər təxirəsalınmaz islahatların keçirilməsini tələb edən digər sahədir. Yüksək sosial vergilər bir çox müəssisələrdə ikili mühasibatın olmasının əsas səbəblərindən biridir. Sahibkarlar işçilərə rəsmi olaraq az maaş verməyə və onu rəsmi əmək haqqından 3-5 dəfə çox olan qeyri-rəsmi əlavələrlə tamamlamağa üstünlük verirlər. Bu sahədə müxtəlif islahat yolları var. Ən məqsədəuyğunu Dövlət Sosial Müdafiə Fonduna ödəniş stavkasının indiki 22%-dən 15%-ədək azaldılmasıdır. Bu halda kompensasiya məqsədilə pensiya ödənişi stavkasını 3%-dən daha yüksək həddə qədər artırmaq məqsədəuyğun olardı.

KOS fəaliyyətinin genişlənməsinə əsaslı investisiya qoyuluşunu təşviq etmək üçün onların tam həcmdə və ya qismən hüquqi şəxslərin mənfəət vergisindən çıxılması arzuolunan hal olardı.

Vergi Məcəlləsinə görə hesablama texnikasına görə amortizasiya ayırmalarının illik norması 25%-ə bərabərdir. Dünya təcrübəsində bu vəsaitlərin daha sürətlə yeniləşməsini nəzərə alaraq kompüter və başqa elektron texnikasının amortizasiya müddətini 3 ilədək azaltmaq məqsədəuyğun olardı.

Vergi Məcəlləsində proqram məhsullarının illik amortizasiyasının xüsusi normaları yoxdur. Məcəllədə olan maddə 114.3.6 illik amortizasiya ayırmalarının maddi olmayan aktivlər üzrə qeyri-müəyyən istifadə müddəti ilə 10% məbləğində müəyyənləşdirir. Dünya təcrübəsinin göstərdiyi kimi, bu maddəyə uyğun gələn proqram məhsulları daha tez amortizasiya olunmasını tələb edir. Bu vəziyyət pirat proqram vasitələrindən istifadənin azalmasına da müsbət təsir göstərəcək.

Hazırda Vergi Məcəlləsi ilə gəlirdən çıxılmayan xərclər kimi İşəgötürənlər (qanunvericiliklə fəaliyyət göstərən hüquqi və ya fiziki şəxslər) tərəfindən işçi heyətin mənafeyinin, sosial rifahının yaxşılaşdırılması və gələcək işgüzar fəaliyyət baxımından çəkilən bir sıra xərclərin gəlirdən çıxılmasına yol verilmir və sonda bu xərclər müəssisənin ( fərdi sahibkarın ) sərbəst mənfəəti hesabına ödənilmiş olur. Bu xərclərə misal olaraq aşağıdakıları göstərmək olar:

1) işəgötürənlər tərəfindən işçilərin yemək və digər qida vasitələri ilə təmin edilməsi üçün çəkilən xərclər;

2) gələcək işgüzar fəaliyyət və səmərəli tərəfdaşlıq üçün partnyorların şərəfinə ziyafət və görüşlərin keçirilməsi üçün çəkilən xərclər;
3) işçinin həyatı üçün zəruri müalicə və tibbi xərclər;
4) normadan artıq ezamiyyə xərcləri;
5) işçilərin sağlamlığı baxımından əlverişli olan idman tədbirləri üçün çəkilən xərclər;
6) himayədarlıq və xeyriyyəçilik nöqteyi-nəzərdən çəkilən xərclər;

Yuxarıda sadalanan xərclərin bəziləri Məcəllə ilə tamamilə, digərləri isə qismən məhdudlaşdırılmaqla gəlirdən çıxılmayan xərclərə aid edilir və işçilərin gəliri kimi qiymətləndirilərək qanunvericilikdə nəzərdə tutulmuş qaydada vergilərə (məcburi sosial sığorta ödənişləri və digər vergilər) səbəb olur. Bu isə məsələni bir qədər də çətinləşdirir. Belə ki, hazırda fəaliyyət sahəsində normal imicə malik bir sıra şirkətlər sadalanan səbəblər üzündən qeyd edilən xərclərin çəkilməsində müəyyən çətinliklərlə qarşılaşır. Təbii ki, bu növ xərclərin müəssisənin (fərdi sahibkarın) gəlirdən tamamilə çıxılan xərclərə aid edilməsinin də bəzi neqativ nəticələri ola bilər (büdcə gəlirinin azalması). Bu səbəbdən Vergi Məcəlləsinə dəyişikliklər hərtərəfli təhlil nəticəsində hazırlanmalıdır. Bu dəyişikliklərə ehtiyac böyükdür. Çünki bunun nəticəsində Azərbaycan şirkətlərinin imici, fəaliyyət tərzi dünya standartlarına daha yaxın, beynəlxalq bazarda rəqabətədavamlılığı isə artmış olar.

MG müəllifləri (kiçik və orta biznesin Avropa təsnifatına keçidi nəzərə almaqla) aşağıdakıları təklif edirlər:

1) 2009-cu ildən başlayaraq sadələşdirilmiş vergiödəmə sistemi üçün dövriyyə limiti iki dəfə artırılsın;
2) 2009-cu ilin birinci yarısında kiçik sahibkarlıq fəaliyyətinin ayrı-ayrı sahələrinə istiqamətləndirilmiş vergi bukletləri işlənib hazırlansın və böyük tirajla nəşr edilsin;
3) 2009-cu ildən başlayaraq yeni təsis edilən kiçik və orta sahibkarlıq subyektləri üçün (ƏDV ödəyiciləri daxil olmaqla) fəaliyyətlərinin birinci ilində vergi tətilləri tətbiq edilsin. Bu imtiyazın bir il sonra həmin müəssisələrin öz sahibləri tərəfindən bağlanmasına səbəb olmaması üçün, müəssisələrin bağlanmasına dair müvafiq normativ sənədlərə, bir il fəaliyyət göstərdikdən sonra bağlanan müəssisənin sahibindən bir illik verginin tutulmasına dair tələblərin əlavə edilməsi məqsədəuyğun olardı;
4) gündəlik tələb olunan qida məhsulları üçün ƏDV stavkası 10%-ədək azaldılsın;
5) 2009-cu ildən başlayaraq ƏDV-nin ödənilməsi qaydası daha da sadələşdirilsin;
6) 2009-cu ildən başlayaraq kiçik və orta müəssisələrin vergiqoyulan mənfəətindən fəaliyyətlərinin genişlənməsinə çəkilən əsaslı xərclərin bir hissəsinin mənfəətə qoyulan vergi məbləğindən ən çoxu 20%-ə qədər çıxılmasına icazə verilsin;
7) 2009-cu ildən başlayaraq Vergi Məcəlləsinə elektron texnikasına əsaslı kapital qoyuluşunun amortizasiyasını 3 ilədək tezləşdirən düzəliş edilsin;
8) 2009-cu ildən başlayaraq Vergi Məcəlləsinə proqram məhsullarına əsaslı kapital qoyuluşunun amortizasiya normasını 50% həddində müəyyənləşdirən düzəliş edilsin;

9) 2009-cu ildən başlayaraq Vergi Məcəlləsinə KOS-un özünün istifadəsi üçün tikdiyi kiçik binalar, tikililər və s. amortizasiyasını 5 ilədək tezləşdirən düzəliş edilsin;
10) 2009-cu ildən başlayaraq Vergi Məcəlləsinə vergiqoyulan mənfəətdən nümayəndəlik (ziyafət, qonaq qarşılama və s.) xərclərinin müəyyən hissəsinin çıxılmasına imkan verən düzəliş edilsin;
11) 2009-cu ildən başlayaraq Vergi Məcəlləsinə avadanlığın alınması və digər əsaslı xərclərə görə ƏDV-nin sahibkarlıq fəaliyyətindən birinci vergi (sadələşdirilmiş sxem üzrə və ya mənfəətdən) ödənilənədək əvəzləşdirilməsinə imkan verən düzəliş edilsin;
12) 2009-cu ilin ilk yarısında Vergi Məcəlləsinə işçilərin qidalanma, müalicə, idman məşğuliyyəti, həmçinin də xeyriyyəçiliyə xərclənən vəsaitlərin miqdarını vergi tutulan mənfəətdən çıxılmasına icazə verən düzəlişlər əlavə edilsin;
13) vergi ödənilməsini 100% elektron üsula keçirmək məqsədilə vergiödəmə terminallarının sayı 2010-cu il yanvarın 1-i üçün müvafiq saya çatdırılsın.

## 5. LİSENZİYALAŞDIRMA SİSTEMİNDƏ İSLAHATLARIN KEÇİRİLMƏSİ

Ölkədə sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması hal-hazırda ölkə Prezidentinin 29 dekabr 2006-cı il tarixli 510 saylı Fərmanı və bir sıra normativ aktlar vasitəsilə tənzimlənir.

Bu gün bu sahədə ən aktual məsələlərdən biri "Lisenziyalaşdırma haqqında" qanundur. Yeni qanunda aşağıdakı prinsiplərin nəzərə alınması vacib sayılır:

- lisenziyalaşdırılan fəaliyyət növlərinin sayının zəruri minimuma qədər azaldılması. Yalnız üzərində nəzarətin olmamasının ekoloji təhlükəsizlik də daxil olmaqla, milli, dövlət və ictimai təhlükəsizliyə zərər vura bildiyi fəaliyyət növləri lisenziyalaşdırılmalıdır;
- bir-birini təkrarlayan yoxlama və nəzarət sxemlərinin ləğv edilməsi (məsələn, eyni zamanda lisenziyalaşdırma və məcburi sertifikatlaşdırma);
- lisenziyalaşdırma üzrə fəaliyyətin müxtəlif orqanların başqa yoxlama və nəzarət fəaliyyəti növləri ilə əlaqələndirilməsi;
- lisenziya almış sahibkarlıq fəaliyyəti subyektinin uyğun biznes sahəsində inhisarçı üstünlüklərə malik olmasının yolverilməzliyi;
- lisenziya üzrə fəaliyyət prosesində mərkəzi icra hakimiyyəti orqanları və uyğun yerli idarəetmə orqanlarının səlahiyyətləri və qarşılıqlı təsir mexanizminin müəyyənləşdirilməsi;
- lisenziya (əgər söhbət sırf fiskal lisenziyalaşdırmadan getmirsə, məsələn, kazino biznesi) üçün ödənişin minimum (xərclər səviyyəsində), lisenziyanın təsir müddətinin isə - fəaliyyət növündən asılı olaraq – müxtəlif səviyyədə, ağlabatan dərəcədə uzun (ən azı 5 il) müəyyənləşdirilməsi;

- hakimiyyət tərəfindən sui-istifadə hallarına yol verməmək məqsədilə lisenziyanın ləğv edilməsi üçün mötəbər əsasların müəyyənləşdirilməsi. Bu halda lisenziyanın təsirinin ləğv edilməsi və ya dayandırılması üçün ən tutarlı əsas lisenziyalaşdırma qaydaları və prosedurlarının pozulmasından daha çox lisenziata qoyulan tələblərin gözlənilməməsidir.
- dövlət və özəl müəssisələrin lisenziyalaşdırma məsələləri ilə bərabər dərəcədə yüklənməsi.

Ən mürəkkəb məsələlərdən biri bu və ya digər fəaliyyətin lisenziyalaşdırılmasının əsaslandırılmasıdır. Bu və ya digər fəaliyyət növünün lisenziyalaşdırılması meyarı olaraq bir çox ölkələrdə əsas kimi qəbul olunmuş aşağıdakılardan istifadə edilir:

- fəaliyyət onun həyata keçirilməsində iştirak etməyən qeyri-məhdud sayda insanlar üçün təhlükəlidir (məsələn, radioaktiv tullantıların basdırılması, ətrafı çirkləndirən maddələrin atılması və s.) və ekologiya üçün də təhlükə yaradır;
- özünə qeyri-məhdud sayda iştirakçını (onların əmlakı və istehsala qoyduqları vəsait də daxil olmaqla) cəlb edən fəaliyyət (investisiya fondları, bank fəaliyyəti və s.);
- əhalinin sağlamlığı və təhlükəsizliyinə birbaşa təsir göstərən fəaliyyət (ticarət istisna olmaqla);
- dövlətin təhlükəsizliyinə təsir göstərə bilən fəaliyyət;
- resurslardan qeyri-məhdud istifadə edən fəaliyyət;
- həddən artıq gəlir gətirən və yüksək dərəcədə vergi qoyulmalı və nəzarət edilməli olan fəaliyyət (məsələn, alkoqollu içkilərin istehsalı, saxlanması və topdan satışı).

MG müəllifləri aşağıdakıları təklif edirlər:

1) 2009-cu ildə yuxarıdakı prinsiplər nəzərə alınmaqla sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması haqqında qanun qəbul edilsin;
2) 2009-cu il yanvarın 1-dən milli və ekoloji təhlükəsizliyi pozmayan və eləcə də əhali kütləsinin sağlamlığı üçün təhlükə yaratmayan aşağıdakı sahibkarlıq fəaliyyəti növləri üzrə lisenziyalaşdırma ləğv edilsin:
    1. tütün və alkoqollu içkilərin pərakəndə satışı;
    2. tərkibində əlvan və qiymətli metallar və daşlar olan sənaye tullantılarının yığılması, işlənməsi və satışı;
    3. turizm fəaliyyəti;
    4. auditor fəaliyyəti;
    5. əmtəə birjası;
    6. maliyyə hesabatları üçün blankların hazırlanması;
    7. möhür və ştampların hazırlanması;
    8. mehmanxana fəaliyyəti (kiçik qonaq evləri üçün lisenziyalaşdırmaya ehtiyac görünmür);
    9. qiymətli metal və daşların hazırlanması, təkrar emalı və satışı;
    10. informasiyanın müdafiə vasitələrinin layihələşdirilməsi və hazırlanması;
    11. Azərbaycan vətəndaşlarının xaricdə işə düzəlməsində vasitəçilik;
3) 2009-cu il yanvarın 1-dən lisenziyalaşdırma rüsumları azaldılaraq bürokratik aparatın lisenziyaların verilməsi ilə əlaqədar real xərcləri

səviyyəsinə yaxınlaşdırılsın;

4) ölkə Prezidentinin 2 sentyabr 2002-ci il tarixli 782 saylı Fərmanı ilə təsdiqlənmiş Lisenziyaların verilməsi Qaydalarının 2.1.6-cı paraqrafında Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş lisenziya verilməsinin mümkün əlavə şərtlərinin mahiyyəti açılmır. Adıçəkilən Qaydaların mətninə müvafiq şərtlərin daxil edilməsi məqsədəuyğun olardı;
5) lisenziya almış sahibkarlıq fəaliyyəti subyektinin uyğun biznes sahəsində inhisarçı üstünlüklərə malik olmasına yol verməmək məqsədilə 2009-cu ilin 1-ci rübündə bütün lisenziyalaşdırılmış sahibkarlıq fəaliyyəti növləri üzrə müvafiq nəzarəti həyata keçirərək və imtiyazı olan bu və ya digər subyektlərin inhisarçı üstünlüyü aradan qaldırılsın. Lisenziyalaşdırılan hər fəaliyyət növü üzrə lisenziya verilən subyektlərin minimal sayı müəyyənləşdirilsin.

## 6. MÜLKİYYƏT HÜQUQUNUN QEYDİYYATI SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Aparılmış tədqiqatlar göstərir ki, daşınmaz əmlaka mülkiyyət hüququnun qeydiyyatı prosesi haqq qazandırılmayacaq dərəcədə çox vaxt aparır. Bu prosesdə adətən, bir sıra müxtəlif dövlət orqanlarına müraciət olunması və çoxlu sayda sənədlərin qeydiyyatdan keçirilməsi lazım gəlir. Araşdırmalar göstərir ki, fiziki və hüquqi şəxslərin öz hesablarına inşa etdirdikləri obyektlər üzrə mülkiyyət hüquqlarının qeydiyyatı prosesində tələb olunan sənədlərin bir çoxu artıqdır. Belə ki, tələb olunan sənədlərin bəziləri dövlət orqanları tərəfindən verilmiş digər sənədlərin təsdiqini əks etdirir. Əlavə olaraq qeyd etmək lazımdır ki, bu sahədə mövcud olan normativ sənədlər paketi hansı ardıcıllıqla və hansı ünvanlara müraciət olunması barədə aydın təsəvvür yaratmır. Vətəndaşların müraciətlərinin hansısa konkret müddət ərzində təmin olunması məsələlərində dövlət orqanlarının vəzifələri aydın göstərilmir.

Müraciət olunan bütün sənədlər üzrə araşdırma aparmaq üçün çoxlu sayda normativ aktların öyrənilməsi tələb olunur.

<u>MG müəllifləri təklif edirlər:</u>

1) 2009-cu ildə mülkiyyət hüququnun qeydiyyatı üzrə bütün sualları tənzimləyən vahid qanun qəbul olunsun. Bu qanunda prosedur ardıcıllıqlarının aşağıdakı kimi aydın göstərilməsi: a) hansısa konkret sənədlərin verilməsində məsul olan dövlət orqanlarının siyahısı; b)dövlət orqanları tərəfindən sənədlərin verilməsindəki müvəqqəti məhdudiyyətlərin göstərilməsi. Buna görə də, fəaliyyətdə olan sənədlər əsasındakı qeydiyyat prosesinin 20 günlük müddətini 5 günə qədər qısaldılması məqsədəuyğundur. Vahid qanunun qəbul olunması hazırkı normativ aktların ləğv olunmasına, mülkiyyət hüququnun qeydə alınması prosesinin qaydaya düşməsinə və tezləşməsinə səbəb olar;

2) 2009-cu ilin birinci yarısında mülkiyyət hüququnun qeydə alınması üzrə məsul olan dövlət orqanlarının hamısında “vahid pəncərə” prinsipinin tətbiq olunması( təbii ki, əgər tələb olunan sənədlərin sayı azaldılmasa);
3) 2009-cu il 1 yanvar tarixindən etibarən hüquqi və fiziki şəxslərin öz hesablarına tikdirdikləri obyektlərin mülkiyyət hüququnun qeydiyyatı prosesində tələb olunan 13 sənədin sayı azaldılaraq aşağıdakı 5 sənəd tələb olunsun: a) ərizə; b) tikintinin texniki pasportu; c) tikintinin istismara verilməsi haqqında dövlət aktı; d) tikintinin poçt ünvanı; e) dövlət rüsumunun ödənilməsi haqqında sənəd.

## 7. SƏMƏRƏLİ MƏLUMATLANDIRMA SİSTEMİNİN YARADILMASI

İnvestor üçün hökumətin bütün qərarları, qanunvericilikdə başverən dəyişikliklər və onun biznesi üçün digər əhəmiyyətli məlumatlardan xəbərdar olmaq vacibdir.

İnvestorun tam və vaxtında məlumat alması onun uğurunun təminatıdır. İnvestorun məlumatlılığı hər şeydən əvvəl dövlət orqanlarının bu işə verdiyi əhəmiyyətdən asılıdır. Bütün investorlar üçün məlumata əlçatanlıq bərabər təmin edilməlidir. Əks halda ayrı-ayrı məmurlar yarıqapalı informasiyadan şəxsi məqsədləri üçün istifadə etmək imkanı qazanır, sahibkarlar isə qeyri-rəsmi ödənişlərlə cəzalandırılır.

Təəssüf ki, dövlət orqanlarının bir çox veb-səhifələrində məlumatlandırma çox aşağı səviyyədədir. Yalnız Vergilər Nazirliyi və Gömrük Komitəsinin veb-səhifələri tələblərin çoxuna cavab verir. Çox təəssüf ki, İqtisadi İnkişaf Nazirliyinin və onun Sahibkarlıq Departamentinin veb-səhifəsi hələ lazım olan səviyyəyə qalxa bilməmişdir.

Dövlət təşkilatlarındakı fəaliyyəti tənzimləyən və qanunların, həmçinin ölkə Prezidentinin və Nazirlər Kabinetinin bütün fərman və sərəncamlarının icra edilməsini təmin edən bütün sənədlərin məcburi surətdə Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsini təmin etmək zəruridir. Həmin qeydiyyatdan sonra bu sənədlərin Ədliyyə Nazirliyinin veb-səhifəsində əks etdirilməsi də son dərəcə vacibdir.

Kiçik sahibkarlığın məlumatlandırılmasını məhdudlaşdıran digər amil İnternet xidmətlərinin bahalılığıdır. Bundan əlavə potensial İnternet istifadəçisi ondan istifadə etmə vərdişindən də məhrumdur.

<u>MG müəllifləri aşağıdakıları təklif edirlər</u>:

1) ölkə Prezidentinin Fərmanı ilə 1 yanvar 2009-cu il tarixindən dövlət orqanlarının qərarları (Prezidentin Fərman və Sərəncamları, Milli Məclisin qanun və qərarları, Nazirlər Kabinetinin qərarları) təkmil axtarış imkanları olan vahid xüsusi İnternet-səhifəsində əksini tapsın;
2) 1 yanvar 2009-cu il tarixindən bütün hökumət qurumlarının (nazirliklər, komitələr, agentliklər və s.) İnternet-səhifələrində sahibkarlıq fəaliyyətinə aid olan bütün idarədaxili qərarların tam əks olunması təmin edilsin;

3) 1 yanvar 2009-cu il tarixindən İqtisadi İnkişaf Nazirliyinin (yaradıldığı halda, Kiçik Biznes üzrə Milli Agentliyin) İnternet-səhifəsində bütün hökumət orqanlarının sahibkarlıq fəaliyyətinə aid olan bütün qərarlarının əks olunması təmin edilsin;
4) 1 yanvar 2009-cu il tarixindən həftədə bir dəfə şənbə günü xüsusi ayrılmış saat ərzində dövlət televiziyası və dövlət radiosu ilə həftə ərzində qəbul edilmiş bütün qərarlar və normativ aktlar haqqında elanlar verilsin;
5) 1 yanvar 2009-cu il tarixindən bütün hökumət idarələrində və Azərenerji, Azəriqaz, Azərdəmiryolu, AZAL, Kaspar, Azərsu kimi dövlət şirkətlərində qaynar telefon xəttinin işləməsi təmin edilsin. Belə xətlər bu gün yalnız Vergilər Nazirliyində və Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsində fəaliyyət göstərir;
6) dövlət təşkilatlarındakı fəaliyyəti tənzim edən və sahibkarlığa dair qanunların, həmçinin ölkə Prezidentinin və Nazirlər Kabinetinin bütün fərman və sərəncamlarının icra edilməsini təmin edən bütün sənədlərin məcburi surətdə Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilməsi həmin təşkilatlara təklif edilsin. Bu mümkün dərəcədə qısa zamanda icra edilməlidir (2009-cu ilin ilk yarısı). Həmin qeydiyyatdan sonra bu sənədlərin Ədliyyə Nazirliyinin veb-səhifəsində əks etdirilməsi də son dərəcə vacibdir;
7) ən yaxın gələcəkdə Azərbaycandakı İnternet xidmətlərinin bahalıolması səbəblərini araşdırıb təhlil edən xüsusi komissiya yaradılsın. Bu qiymətlərin normal sayıldığı halda İnternet vasitəsilə məlumatlandırılma məsələsində hökumət kiçik sahibkarlığa yardım məqsədilə İqtisadi İnkişaf Nazirliyinin regional şöbələrində pulsuz İnternet terminalları quraşdıra bilərdi. Həmin yerlərdə İnternetlə işləməyə yardım xidməti də təşkil edilə bilərdi. Azərbaycan hökuməti bunu eləməyə qadirdir.

## 8. TİKİNTİYƏ İCAZƏNİN ALINMASI SİSTEMİNİN İSLAHATI .

Dövlət Tikinti və Memarlıq Komitəsinin qəbul etdiyi şəhərsalma qaydaları və normalarında, miqyasından və məqsədindən asılı olmayaraq bütün növ binalar “obyekt” adlandırılır. Məqsədəuyğun olardı ki, bu məsələyə bir aydınlıq gətirilərək həmin binalar miqyas baxımından kiçik (xırda ofislər, dükanlar, köşklər və s.) və böyük (çoxmənzilli yaşayış binaları, sənaye müəssisələri və s.) olaraq bir-birindən ayrılsın və bunların həcm və məqsədlərinə görə hər biri üçün xüsusi qaydalar və normalar təyin edilsin. Bunun nəticəsində tikintiyə icazə verən və ya razılaşdıran dövlət təşkilatlarının sayı azalar rəsmi bürokratik proseslər sürətlənə bilərdi. Hal-hazırda bu sahə ilə əlaqədar olan prosedurların Azərbaycanda sayı 31-dir! Bu rəqəm “Doing business in 2009” çərçivəsində araşdırılan ölkələrin əksəriyyətində müvaviq rəqəmlərdən xeyli yüksəkdir.

MG müəllifləri təklif edirlər ki,

1. 2009-cu ilin ilk yarısında, böyüklüyündən və məqsədlərindən asılı olaraq tikinti obyektlərinin təsnifatı müəyyənləşdirilsin. Tikintiyə lazım

olan icazələrin alınması sisteminin həmin obyektlərin növ və məqsədinə bağlanması üçün gərəkli tədbirlər görülsün;
2. 2009-cu ilin ikinci yarısından etibarən "vahid pəncərə" prinsipinə əsaslanan icazələrin alınması sistemi tətbiq edilsin.

## 9. KİÇİK SAHİBKARLIQ İNFRASTRUKTURUNUN İNKIŞAF ETDİRİLMƏSİ

Tədqiqatların göstərdiyi kimi, kiçik biznesin inkişafına mane olan vacib problemlər sırasında iş yerinin icarə haqqı və kommunal xidmətləri xərclərinin yüksək olması durur. Biznes-inkubatorların yaradılması (xüsusilə rayonlarda) bu amillərin təsirini xeyli azaltmağa imkan verərdi. Belə ki, dövlət icarə qiymətlərini azalda və ya sahibkarları tamamilə bu xərclərdən azad edə bilərdi. Bundan əlavə, biznes-inkubatorlar işə təzə başlayan biznesmenlərin telefon əlaqəsi, Internet, katibə və başqa xidməti heyətin saxlanılması üzrə xərclərini azaltmağa imkan verir. Biznes-inkubatorlar üçün istifadəsiz qalan bir çox dövlət müəssisələrinin binaları və istehsalat sahələri istifadə oluna bilərdi.

Kiçik biznes çox vaxt innovasiya texnologiyalarından faydalanır və hətta onların irəlilədilməsi və tətbiqində iştirak edir. İnnovasiya texnologiyaları dünyanın bir çox aparıcı ölkələrinin qayğısındadır. Avropada innovasiya mərkəzləri ötən əsrin 80-ci illərində yaradılmağa başlandı. Çox vaxt belə mərkəzlər istehsalla məşğul olan kiçik müəssisələr, elmi-tədqiqat strukturları (mərkəzlər, şirkətlər və s.) , tədris müəssisəsi, sərgi meydanı və eləcə də xidmət strukturlarının (yaşayış məntəqəsi, anbarlar, mühafizə idarəsi və s.) ümumi ərazisində yerləşmiş konqlomeratı olan texnoparkların mərkəzi elementləri olur. Azərbaycanda texnoparkın pilot layihəsini işləyib hazırlamaq və tətbiq etmək məqsədəuyğun olardı.

İşə təzə başlayan və təcrübəsi az olan sahibkarlar üçün peşəkar məsləhətinin olduqca böyük əhəmiyyəti var. Sahibkarın ehtiyacı ola bildiyi sualların siyahısına işə başlayan biznesmenin üzləşdiyi biznes-planın hazırlanmasından başlayaraq uçotun düzgün təşkili məsələlərinədək ən geniş suallar dairəsi ola bilər.

<u>MG müəllifləri aşağıdakıları təklif edirlər:</u>

1) birinci mərhələdə (2009-cu il) 3-5 regional mərkəzdə, məsələn: Gəncə, Sumqayıt və Qubada biznes-inkubatorlar yaradılsın (istifadfəsiz qalan dövlət binalarını təmir etmək və ya yenidən qurmaq yolu istifadə edilə bilər);

3) 2009-cu il ərzində Bakı universitetlərindən birinin nəzdində texnoparkın yaradılması üzrə pilot layihə hazırlansın. Bununla əlaqədar olaraq ən yaxşı təklifin hazırlanması məqsədilə universitetlər arasında müsabiqənin elan edilməsi çox faydalı ola bilərdi. Həmin müsabiqənin qalibini Sahibkarlığa Yardım Milli Fondundan və ya başqa mənbələrdən əlverişli kreditlə və ya qrantla mükafatlandırmaq olardı;

2) sahibkarlıq fəaliyyətinə təzə başlayan və ya təcrübəsi az olan sahibkarlara 1 yanvar 2009-cu il tarixindən məsləhət xidmətinin göstərilməsi təşkil edilsin. Bu xidmətlər İqtisadi İnkişaf Nazirliyi və ya Kiçik Biznes üzrə Milli Agentliyin (beləsinin yaradıldığı halda) yerli nümayəndəliklərində təşkil oluna bilər.

Məsləhət xidmətinin göstərilməsi üçün bir neçə konsaltinq şirkətini cəlb etmək məqsədəuyğun görünür. Müvafiq xərclər 2009-cu ilin dövlət büdcəsində planlıdaşdırıla və ya Sahibkarlığa Yardım Milli Fondunun vəsaitindən ayrıla bilinər. Dövlət bu xərclərin öhdəsindən tam gələ bilmək qabiliyyətindədir.

## 10. QAIMƏSIZ SATIŞA GÖRƏ CƏZALARIN GÜCLƏNDIRILMƏSI

Aparılan tədqiqatların göstərdiyi kimi, qaiməsiz (fakturasız) kommersiya fəaliyyəti Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti subyektləri və bürokratik aparat nümayəndələri tərəfindən ən çox qanun pozuntusu hallarına səbəb olur. Eyni zamanda kommersiya fəaliyyətinin bir nöqtəsində yaranaraq o, bir çox başqa sahibkarlıq fəaliyyəti subyektlərinə yayılaraq onları rüşvət tələb edən hökumət strukturları nümayəndələri üçün hədəfə çevirir. Ölkə hökuməti tərəfindən vaxtında fakturasız kommersiya fəaliyyətini qadağan edən bir sıra normativ aktlar qəbul olunmuşdu. Lakin bu qərarlar praktiki olaraq yerinə yetirilməmiş qalır.

Sahibkarlar arasında aparılan sorğunun göstərdiyi kimi, fakturasız kommersiya fəaliyyəti tək ölkə sərhədində başlanmır, o həm də malın ölkə ərazisində istehsal olunduğu halda da baş verir. Hətta müxtəlif mallar istehsal edən bir sıra məşhur Azərbaycan şirkətləri də malların pərakəndə şəbəkəyə fakturasız ötürülməsindən bəzən istifadə edir.

Mövcud normativ aktlara yenidən baxmaq və onların tələblərini kəskinləşdirmək, eləcə də fakturasız kommersiya fəaliyyətinə görə cəza tədbirlərini sərtləşdirmək vacib görünür. Hələ ki bu şər ölkədə aşağı korrupsiyanın yüksək səviyyəsinin əsas amillərindən biri olmaqda davam edirsə, vaxtaşırı yoxlamalar üzrə kütləvi kampaniyalar keçirmək vacibdir. Bundan əlavə, fakturasız satış həcminin kəskin azalması ölkədə iqtisadiyyatın vəziyyəti haqqında statistika məlumatlarının keyfiyyətini yüksəltməyə, büdcə gəlirlərini artırmağa, keyfiyyətsiz, o cümlədən insan sağlamlığı üçün təhlükəli malların satışı riskini azaltmağa imkan verərdi.

MG müəllifləri aşağıdakıları təklif edirlər:

1) 1 yanvar 2009-cu il tarixindən malı pərakəndə və topdansatış şəbəkəyə ötürən mal sahibində fakturanın olmadığı halda tədarük aktının sadə formasından istifadəyə icazə verilsin;
2) 1 yanvar 2009-cu il tarixindən uyğun sənədlərlə (faktura və ya tədarük aktı) müşayət olmayan malların satışına görə həmin malların müsadirə edilməsi formasında satıcının cəzalandırılması tədbiri tətbiq edilsin. Mal sahibinin müəyyənləşdirildiyi halda ona orta bazar qiyməti əsasında hesablanmış malın dəyərinə bərabər məbləğ formasında cərimə tətbiq edilsin;
3) 2009-cu ildə dövlət orqanları və ictimaiyyət nümayəndələrindən ibarət qarışıq komissiyaların yaradılması və satılan mallara sənədlərin olmasının yoxlanılması üzrə bir neçə kütləvi kampaniyalar keçirilsin.

## 11. YOXLAMALARIN TƏNZİMLƏNMƏSİ

Yoxlamalar olmalıdır. Məsələ ondadır ki, yoxlamalar (nəzarət) hansı tezliklə və kim tərəfindən gerçəkləşdirilməlidir. Ölkə Prezidenti tərəfindən keçmişdə əsaslandırılmamış yoxlamaların aradan qaldırılması üzrə bir sıra fərmanlar qəbul olunmuşdu (Fərmanlar: 17.06.1996 tarixli 463 saylı, 07.01.1999 tarixli 69 saylı və 28.09.2002 tarixli 790 saylı). Öz məzmunu, məsələləri əhatə etmə dairəsinə və göstərişlərin və tövsiyələrin prinsipiallığına görə xüsusilə güclü fərman Prezidentin 28.09.2002 tarixli fərmanıdır. Bu fərmanla sahibkarlıq subyektlərinin yoxlamalarının və onların fəaliyyətinə əsaslandırılmamış müdaxilələrin sayını kəskin azaltmaq mümkün oldu. Lakin son iki ildə müxtəlif nazirliklər, yerli hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən yoxlamalar və nəzarət hərəkətlərinin olduqca artması müşahidə olunur. SBİİYF tərəfindən bu ilin may-iyul aylarında 1000 biznesmen arasında keçirilmiş sorğunun nəticələri bunu sübut edir. Sorğu iştirakçılarının təxminən 40%-i bəyan ediblər ki, azı ayda bir dəfə onlara hər hansı dövlət orqanının nümayəndəsi gəlir. Sorğunun nəticələrinə görə sahibkarlıq subyektlərinə başqa idarələrə nisbətən daha tez-tez Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (yanğın təhlükəsizliyi müfəttişləri), Dövlət Sosial Müdafiə Fondu, İqtisadi İnkişaf Nazirliyi, Sanitar Epidemioloji Xidmət, Daxili İşlər Nazirliyi, Standartlaşdırma Agentliyi, Ekologiya Nazirliyi və yerli icra hakimiyyəti nümayəndələri gəlirlər.

Sahibkarlıq subyektinin vergi orqanları nümayəndələri tərəfindən yoxlanılması tam aydındır və, yəqin ki, əsaslandırılmışdır. FHN-nin (yanğın təhlükəsizliyi müfəttişləri) ikinci yerdə olması, yəqin onunla izah olunur ki, bu hökumət orqanı yeni yaradılmışdır (halbuki Yanğın Təhlükəsizliyi İdarəsi lap çoxdan mövcuddur). Narahat edən odur ki, yanğın təhlükəsizliyi müfəttişləri çox vaxt kiçik sahibkarlıq subyektlərinin imkanı daxilində olmayan tələblər irəli sürürlər. Maraqlıdır, bəs ölkədə yanğınla bağlı vəziyyət necə dəyişib? Ümumiyyətlə, yanğınlar nadir haldır. Ona görə də bu sual yerinə düşəndir: sahibkarlıq subyektlərində yanğınaqarşı sistemlərin qurulması üzrə ümumi xərclər yanğından itki riskləri azalmasının dəyəri ilə müqayisə ediləndirmi? Cavabın “yox” olduğu halda, bu təkcə sahibkarların əlavə vəsaitinin yox, həm də milli sərvətin əsaslandırılmamış itkisi deməkdir. Qeyd etmək lazımdır ki, dövlət hakimiyyəti nümayəndəsi tərəfindən sahibkara siqnalizasiya və digər yanğınaqarşı avadanlıq sistemlərinin qurulması üzrə konkret firmanın məsləhət görülməsi tamamilə yolverilməzdir.

Daxili İşlər Nazirliyi nümayəndələrinin sahibkarlara tez-tez baş çəkməsini əsaslandırmaq çətindir. Ümid etmək olar ki, nazirliyin rəhbərliyi vəziyyəti təhlil edəcək və ölkə Prezidentinin 28.09.2002 tarixli 790 saylı Fərmanının müvafiq maddələrinin sözsüz yerinə yetirilməsi üzrə tədbirlər görəcəkdir.

Qeyd etmək lazımdır ki, olduqca çox vaxt yoxlamalar tam qanuni olur, ona görə ki, bizim qanunvericilik aktları belədir. Onlardan çoxu dövlət orqanlarına kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti üzərində praktiki olaraq məhdudiyyətsiz yoxlamalar (nəzarət) aparmağa imkan verir. Qanunların əksəriyyətində əsasında bu və ya digər sahibkarlıq subyektinin yoxlanması haqqında dövlət orqanına qərar qəbul etmək hüququ verən meyarlar konkretləşdirilmir.

Yanğın, sanitar-epidemioloji və ekolji təhlükəsizliyi tənzimləyən mövcud qanunlarda ilk növbədə əsas anlayışları beynəlxalq standartlara uyğunlaşdırmaq lazımdır.

Yenə də qeyd edək ki, yoxlamalardan az işçisi olan kiçik sahibkarlıq subyektləri xüsusilə əziyyət çəkirlər.

Ədalət xatirinə onu da qeyd etmək lazımdır ki, çox vaxt sahibkarların öz fəaliyyətlərində hansı qayda və normativ akt müddəalarına sözsüz əməl etmələri haqda məlumatları az olur.

Sorğular həm də onu göstərir ki, heç də bütün hallarda Nəzarət Kitabçalarından istifadə olunmur və eləcə də heç də bütün hallarda yoxlayan şəxsi İİN işçisi müşayiət etmir.

MG müəllifləri aşağıdakıları təklif edirlər:

1) 1 yanvar 2009-cu il tarixindən şirkətlər Vergilər Nazirliyində qeydiyyatdan keçərkən onların nümayəndələrinə və eləcə də VÖEN almış fərdi sahibkarlara yoxlamaların Nəzarət Kitabçaları məhz bu zaman təqdim edilsin;
2) 1 iyun 2009-cu il tarixinə İqtisadi İnkişaf Nazirliyinin Nəzarət Kitabçalarından istifadə olunması (2000 sahibkarlıq subyekti üzrə) və yoxlamaların lazımlılığı təhlil edilsin;
3) 1 yanvar 2009-cu il tarixindən sahibkarlıq subyektlərinin qeydiyyatı zamanı onların fəaliyyətinin bu və ya digər konkret dövlət orqanları tərəfindən və necə tez-tez yoxlanılması haqqında məlumatlandırma praktikası həyata keçirilsin;
4) bütün dövlət orqanları tərəfindən bu və ya digər iqtisadi fəaliyyət subyektinin yoxlanılmasından (nəzarət) əvvəl elektron poçtu ilə qarşıdakı yoxlama haqqında Sahibkarlıq Departamentinə (yaradıldığı halda Agentliyə) mütləq məlumat verilsin. Tənzimləyici sənədlərin təkmilləşdirilməsi üzrə uyğun tövsiyələrin hazırlanması məqsədilə bu məlumatlar sonralar təhlil edilsin;
5) dövlət və özəl şirkətlərin yoxlanılmasına qeyri-bərabər yanaşma aradan qaldırılmalıdır. Təcrübə göstərir ki, belə qeyri-bərabər yanaşma mövcuddur və o, ədalətli rəqabət şərtlərinin təmin edilməsi prinsiplərinə uyğun deyil;
6) Kiçik sahibkarlıq subyektləri nümayəndələrinin əsaslandırılmamış yoxlamalarından tez-tez şikayət etdikləri İİN-nin Ticarət və Antiinhisar departamentlərinin funksiyaları təhlil edilməlidir. Birincinin fəaliyyətinin xarakteri bazar iqtisadiyyatı prinsiplərindən olduqca uzaqdır, bu narahatedici haldır. Antiinhisar departamentinin fəaliyyətində çox vaxt əsas məsələlərdən uzaqlaşmaq müşahidə olunur.

## 12. QANUNUN ALİLİYİNİN VƏ ƏDALƏTLİ MÜHAKİMƏNİN TƏMİN EDİLMƏSİ

Əfsus ki, hakimlərin ədalətsizliyinə dair olan şikayətlər az deyil. Prezidentin 28.09.2002 tarixli 790 saylı fərmanı ilə müvafiq dövlət təşkilatlarına ciddi tövsiyələrin verilməsinə

baxmayaraq, iş adamlarının dediyinə görə, məhkəməni hələ də qanunçuluq deyil, güc qazanır.

MG müəllifləri təklif edirlər ki,

1. 2009-cu ilin ikinci yarısından etibarən sahibkarlıq fəaliyyəti sahəsinə dair işlərin baxılması üçün andlılar məhkəmələri tətbiq edilsin;
2. 2009-cu ilin yanvar ayının 1-dən etibarən Ali Məhkəmə, İİN və sahibkarların ictimai birliklərindən ibarət komissiya təşkil edilərək, sahibkarların şikayətlərinə görə açılan məhkəmələrdə monitorinq aparsın.

## 13. XARİCİ TİCARƏT ƏMƏLİYYATLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Azərbaycanın Dünya Bankının "Doing Business in 2009" hesabatındakı ən mənfi göstəricisi xarici ticarət indikatoruna aiddir. Əksər ölkələrlə müqayisədə, gömrükdə istifadə edilən sənədlərin sayı, iş adamlarının itirdikləri vaxt və bir konteynerin gömrük təmizlənmə xərcləri hələ də çox olmaqda davam edir. Həmin indikatora görə, araşdırılmış 180 ölkənin arasında Azərbaycan 174-cü yer tutmaqdadır.

MG müəllifləri təklif edirlər:

1. Müvafiq əməliyyatları asanlaşdıran, onların şəffaflığını yüksəldən və yüklərin gömrükdən keçirilmə sürətini artıran yeni Gömrük Məcəlləsinin qəbulu sürətləndirilsin;
2. Artıq neçə ildir Gömrük Komitəsində hazırlanan elektron bəyannamə sisteminin tətbiqi sürətləndirilsin;
3. Gömrükdə "vahid pəncərə" prinsipi tətbiq edilsin.

## 14. İCTİMAİ KORPORATİV MƏSULİYYƏT: MƏCBURİLİKDƏN TƏŞVİQƏ

Hakimiyyətin yerli (bəzən də mərkəzi) təşkilatları mütəmadi surətdə iş adamlarını müxtəlif ictimai işlər aparmağa məcbur edir (məsələn, məktəb təmiri, yol çəkmə, qaçqınlara yardım

və s.). İctimai korporativ məsuliyyət təşəbbüskarlığın muhüm keyfiyyətlərindən biridir, lakin bu məsuliyyət könüllü surətdə göstərilməlidir.

MBG müəllifləri təklif edirlər ki,

1. Hökumət aşkar şəkildə iş adamlarına təklif etsin ki, bu cür fəaliyyətə məcbur edildikləri hallarda onlar xüsusi telefon xətti ilə bu barədə hökumətə xəbər versinlər;
2. Hökumət, bütün öz təşkilatlarına iş adamların məcburi surətdə ictimai fəaliyyətə cəlb etməsini qadağan etsin;
3. Yerli icra hakimiyyəti təşkilatlarının fəaliyyətinə dair qanunvericilik sənədlərinə iş adamlarının məcburi surətdə ictimai fəaliyyətə cəlb edilməsini qadağan edən qaydalar əlavə edilsin;
4. 2009-cu ilin 1-ci rübü ərzində İİN ictimai fəaliyyəti könüllü surətdə icra edən iş adamlarının təşviq və təltif edilməsi haqqında bir təklif hazırlasın.